*Muxtaroğlu, yaşa, yarat, gül indi.*
*Qəlbindəki müşgüllərim silindi*



**ƏBÜLFƏZ MUXTAROĞLU**
***Filologiya üzrə fəlsəfə doktoru,***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü***

## *SƏS VERİRƏM Kİ...*

Qışın çilləsində bahar eşqinə,
Tutub Orxanımın totuq əlindən.
Bir gözümdə sevinc, birində kədər,
Onun sabahına səs verirəm mən.

Bəli, səs verirəm, səs verirəm ki.
Şəhidlərin qanı yerdə qalmasın.
Qalxsın, pöhrələnsin fidan arzular.
Onları qar, çovğun, ayaz almasın.

Bəli, səs verirəm, səs verirəm ki,
Asılı qandallardan açılsın qollar.
Düzəlsin qaməti "Xudafərin"in,
Arazın üstündən çoxalsın yollar.

Bəli, səs verirəm, səs veriəm ki,
BMT-dən gəlsin xalqımın səsi.
Sönmüş ocaqlardan qalxsın tüstülər,
Didərgin görməyim daha heç kəsi!

Bəli, səs verirəm, səs verirəm ki,
Gülsün aranım da, gülsün dağım da.
"Yersiz gəldi deyə, yerli qaç" - deyən
Bir yağı qalmasın Qarabağımda

Bəli, səs verirəm, elin sərvəti,
Yadların cibinə axıb dolmasın.
Milyonlar yetirən yurdun övladı
Qəpiyə, quruşa möhtac olmasın!

Bəli, səs verirəm, səs verirəm ki,
Ayrılıq sözünü lüğətdən atım.
Dilimə, dinimə səd qoyulmasın.
Bəsdir, tapdanmasın mənəviyyatım!

Bəli, səs verirəm, səs verirəm ki,
Azadlıq yolunda halaldır qanım!
Bir də bölünməsin daşım, torpağım-
Gülsün "Gülüstan"sız Azərbaycanım!

***dekabr, 1991***

## *"CƏNGİ" VAXTIDIR*

Kəndlər yandı, oğul öldü, ər itdi,
Ağı deyən dilimizdə tük bitdi.
Neyin səsi qara daşı əritdi.
Gəl dəyişək bu ahəngi, vaxtıdır,
"Cəngi" çalın, bu gün "Cəngi" vaxtıdır.

Türk övladı göz yaşını car etməz,
Ölər, Vətən torpağını xar etməz.
Daşnaqlara "Yetim segah" kar etməz,
Zilə qalxsın "Mahur rəngi", vaxtıdır
"Cəngi" çalın, bu gün "Cəngi" vaxtıdır.

Başımıza nə gəlmədi "sarı"dan,
Qovduq darvazadan, aşdı barıdan.
Yalvarmaqla donuz çıxmaz darıdan.
Götür, qardaş, gəl tüfəngi, vaxtıdır,
"Cəngi" çalın, bu gün "Cəngi" vaxtıdır.

Düşmənləri tanıyırıq haçandır,
Ermənilər qan gördümü qaçandır.
Ruslar bizə gizli silah açandır.
Gəlin kəsək bu xərçəngi, vaxtıdır,
Cəngi" çalın, bu gün "Cəngi" vaxtıdır.

Vəhşilikdə çıxarsa da səs-səda,
El məsəlin bir xatırla, sal yada.
Quduranlar qırx gün yaşar dünyada,
Suda sınar su səhəngi, vaxtıdır.
Cəngi çalın, bu gün "Cəngi" vaxtıdır.

Xocalının intiqamın almasaq,
Bağışlamaz bizi bu daş, bu torpaq.
İynə batırana biz batırmasaq.
Avazımaz yağı rəngi, vaxtıdır,
"Cəngi" çalın, bu gün "Cəngi" vaxtıdır.

Haray salın bütün kəndə, şəhərə,
Bircə yol var qələbəyə, zəfərə.
Mərd ərənlər süvar olsun yəhərə,
Qırılmasın qoy üzəngi, vaxtıdır!
"Cəngi" çalın, bu gün "Cəngi" vaxtıdır.

Bu işlərin günahkarı Ayazdı,
Prezidentdir, fəqət ağlı dayazdı.
Qarabağda "qar" yanında "a" yazdı,
Çəkiləsi onun əngi, vaxtıdır!
"Cəngi" çalın, bu gün "Cəngi" vaxtıdır.

Siyasətdə ulu türkün atası,
Düşmən çətin o dahiyə batası!
Tək Heydərdir dadımıza çatası.
Rəhbər seçək o nəhəngi, vaxtıdır!
"Cəngi" çalın, bu gün "Cəngi" vaxtıdır.

***mart, 1992***

# *HARAY*

Haray, ey insanlar, eşidin, bilin,
Başımdan aşıbdır kədərim mənim!
Yatdım yaz nəfəsli dan həsrətilə.
Açılmaq bilmədi səhərim mənim.

Gəmim fırtınada, sönmüş mayağım,
Hər yerdən üzülüb əlim, ayağım.
Yalnız, ulu tanrım, sənsən dayağım,
Sənə yetişirmi xəbərim mənim!

Zülm ilə ayrıldı elim elindən.
Müqəddəs dinindən, ana dilindən.
İstədim ağlayım dərdlər əlindən,
Boğuldu boğazda qəhərim mənim.

Sarılar tökdükcə nahaq qanları,
Təbəssüm bürüyür alçaq "yan"ları.
Haray, kainatın mərd insanları,
Toplara tutulub şəhərim mənim!

Dost kimi göstərdi özünü yağı,
Dikib torpağıma gözünü yağı,
İndi açıq deyir sözünü yağı:
Sənə bal olmalı zəhərim mənim".

De, bunlar faşizmi salmırmı yada,
Körpələr, qocalar yaxılır oda.
Haray, Qaçaq Nəbim, yetiş fəryada,
Yəhərdə vurulur Həcərim mənim!

Törənir cinayət, silinir izlər,
Dəhşətdən saralıb solmuş bənizlər.
Haray, okeanlar, haray dənizlər,
Qanla ləpələnir Xəzərim mənim!

Dərələr birləşsə artmazmı sellər,
Tək əl od olsa da meydanda neylər?
Haray, ay obalar, haray, ay ellər.
Birlikdən doğacaq zəfərim mənim!

***22 yanvar, 1990***

# *BU DAĞLAR AĞLATDI MƏNİ*

Pozulubdur təbiətin naxışı,
Kədərlidir qayaların baxışı,
Ağı dedi bulaqların axışı,
Yerimdən oynatdı məni, ay Allah!
Bu dağlar ağlatdı məni, ay Allah!

Pəri çınqılına pəri gəlmədi,
Yağı kəsdi yolu, bəri gəlmidi,
Şəhid oldu oğlu, əri gəlmədi,
Qəm gölünə atdı məni, ay Allah!
Bu dağlar ağlatdı məni, ay Allah!

Qonaqgörməz əziz qonaq görmədi.
Qız-gəlinlər əvəliyin hörmədi.
Nəmi qurub, südü qaymaq sərmədi,
Kim belə alçaltdı məni, ay Allah!
Bu dağlar ağlatdı məni, ay Allah!

Alagöldə yaylamadı elləri,
Qan qoxuyur Çiçəklinin gülləri.
İşıqlıdan gəlmir işıq selləri,
Zülmətlərə qatdı məni, ay Allah!
Bu dağlar ağlatdı məni, ay Allah!

"Əyriqar"da qar üstə qar qalandı,
"Çalbayır"da neçə arxac talandı.
İndi bildim, o dostluqlar yalandı,
"Yad yaman aldatdı məni", ay Allah!
Bu dağlar aldatdı məni, ay Allah!

Salvartıdan "Əlidaşı" gorunur,
"Üçtəpələr" çən-dumana burunur.
Qəvi düşmən Yazı səmtə surünur,
Eylə bir Ağ atlı məm, ay Allah!
Bu dağlar ağlatdı məm, ay Allah!

Tanrı, məni salma düşmən girinə,
Mehriban et xalqımı bir-bırınə
Qurbanım var ulu Qırxlar pırinə,
Bu arzuma çatdır məni, ay Allah.
Bu dağlar ağlatdı məni, ay Allah!

*iyun, 1996*

# NOVRUZUM

Gün günə calandı, il başa gəldi,
Arzum ürəyimdə qaldı, Novruzum.
Qışın qarı bu torpağın yorğanı,
Boran məni yayda aldı, Novruzum!

Bilinmədi nə gündüzü, gecəsi,
İşsizlərə iş düzəltdi neçəsi.
Dişsizlərə diş düzəltdi neçəsi,.
Koramallar məni çaldı, Novruzum!

Gedə bilsəm, anam kimi qucaqlar,
Hörümçəklər tor qurduğu bucaqlar.
On bir ildə od görməyən ocaqlar
Ürəyimdə qara xaldı, Novruzum!

Torpaq dərdi ürəyimi yaralar,
Qorxuram ki, qaysaq tuta yaralar.
İstəyirəm doğrayalar, yaralar.
Təbib deyir, hələ kaldı. Novruzum!

Yağı heç vaxt yağılıqdan qalmayıb,
"Sal" deməklə qurd qoyunu salmayıb.
Söz qılıncsız hərbdə zəfər çalmayıb,
Bu nə sirdir, nə xəyaldır, Novruzum!

Yurdsuzum var, evsizim var, acım var,
Özgə əldə Qarabağ tək tacım var.
Əsirlikdə neçə anam, bacım var,
Nə çal-çağır, bu nə haldı, Novruzum!

Yaxşı bilir yaxın dost da. yağı da-
Tufan gərək qara çəni dağıda!
Hər kəs öz ölüsün ağlar ağıda,
Bu ki, məşhur bir misaldı, Novruzum!

Dağlarıma ünüm yetməz, əl çatmaz,
Vətən oğlu Vətənini alçaltmaz!
Torpağı torbayla daşınan yatmaz,
Toplar susub, niyə laldı, Novruzum!

Göyçəmizdə "Göyçəgülü" dillənsin!
Gəlişinlə Qarabağım güllənsin!
Laçınımda al bayrağım yellənsin!
Deyim: bayram xoş vüsaldı, Novruzum!

*20.03.1999*

# SƏSLƏYİR BİZİ

Ey yurdumun silah tutan ərləri,
Vətən qalıb darda, səsləyir bizi.
Soyuq çadırlarda xəstə körpələr,
Donur buzda, qarda, səsləyir bizi.

Yağı öz yurdundan qovan ananı,
Xan Araz körpəsin boğan ananı.
Səni, məni, onu doğan ananı
Axtar, tap, o harda səsləyir bizi.

Kürsü üçün çalışdıqca yarımız.
Talan oldu sərvətimiz, varımız.
Əsir düşdü gəlinimiz, qarımız-
Tapdalanmış ar da səsləyir bizi.

Şən Vaqifin qaş-qabağı tökülüb,
Ələsgərin qəbir evi sökülüb.
Xanqızının gözü yola dikilib,
Dərin intizarda səsləyir bizi.

Ləzgi, talış, udin, salsın havarı.
Ana yurdun kürdü, tatı, avarı.
Qayıqçının əldən düşər avarı.
Dəli dalğalarda səsləyir bizi.

Yağı at oynatsa cıdır düzündə,
Haqqımız yox yaşayaq yer üzündə.
İstəsək ucalaq dünya gözündə,
Şəhidlikdə də orda səsləyir bizi.

Bunu aləm bilir olsa da acı,
Qaş-daş, sökülmüş Qarabağ tacı,
İsməti tapdanmış nə qədər bacı-
Ahu qalıb torda, səsləyir bizi.

Zəfər eşqi yaman dolub beyninə,
Qorxu, hürkü əsla gəlməz eyninə.
Döyüş libasın, geyib əyninə,
Həcər də, Nigar da səsləyir bizi.

Səslənsin BTP, BMP, qrad,
Kəklik kimi qaqqıldasın avtomat.
Qəzəb qılıncını yaxşı ovxarlat,
Xəncər, bıçaq, korda səsləyir bizi.

Peyğəmbər təmkinli, imam camallı.
Xətai qeyrətli, dərin kamallı.
Atatürk arzulu, gözəl amallı,
Mətin bayraqdar da səsləyir bizi.